

# Azərbaycanla bağlı beşinci rəy

## Xülasə



# Milli azlıqların qorunması haqqında Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitə

30 may 2024-cü ildə təsdiq edilib

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

ACFC/OP/V(2024)1

15/11/2024 tarixində nəşr edilib

Milli azlıqların qorunması haqqında Çərçivə Konvensiyasının katibliyi
Avropa Şurası
F-67075 Strasbourg Cedex
Fransa

www.coe.int/minorities

## MÜNDƏRİCAT

FAKTLARIN XÜLASƏSİ .......... 4
TÖVSİYƏLƏR .......... 6
Dərhal görülən fəaliyyət üçün tövsiyələr .......... 6
Əlavə tövsiyələr .......... 6
Bu tövsiyələrə riayət etmə .......... 7
MONİTORİNQ PROSEDURU .......... 8
Məşvərətçi Komitənin Dördüncü Rəyinin tövsiyələri ilə bağlı monitorinq fəaliyyətləri .......... 8
Beşinci dövr üçün dövlət hesabatının hazırlanması .......... 8
Ölkəyə səfər və Beşinci rəyin qəbul edilməsi .......... 8

## FAKTLARIN XÜLASƏSİ

1. Azərbaycan etnik, mədəni, dil və dini dözümlülüyü və hörməti təbliğ etməyə çalışan çoxmillətli ölkədir. Onun üçün mədəni müxtəliflik ciddi hüquq bərabərliyinə dayanan Azərbaycan multikulturalizmi ideyasına əsaslanır. Çərçivə Konvensiyasının tətbiqini təmin etmək üçün dövlətlərin müdafiə etməsi gözlənilən bərabərlik hüququ və "ana dilindən" istifadə hüququ kimi bəzi hüquqlar Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilib. Milli azlıqların folklorları və adət-ənənələri həm dövlət, həm də yerli səviyyədə qeyd edilir. Bir çox milli azlıqların dilləri, o cümlədən sayca daha kiçik olan dillər ibtidai təhsil səviyyəsində tədris edilir. Dövlət qurumları ənənəvi olaraq milli azlıqlara aid olan şəxslərin yaşadığı regionlarda infrastruktur və ictimai xidmətləri inkişaf etdirir. Buna baxmayaraq, Azərbaycanda insan hüquqlarının, demokratiyanın və qanunun aliliyinin ümumi vəziyyəti böyük narahatlıq mənbəyi olaraq qalmaqdadır. İfadə, toplaşmaq və birləşmək azadlıqlarına qoyulmuş məhdudiyyətlər milli azlıqlara aid olan şəxslərin öz insan hüquqlarından, o cümlədən azlıqların hüquqlarından səmərəli şəkildə istifadə etmək imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Azlıqların hüquqlarının müdafiəsi, o cümlədən ayrı-seçkiliyə yol verilməməsi, dil hüquqları və təhsil sahələrində hələ də müfəssəl qanunvericilik mövcud deyil.

2. Bu monitorinq dövrü ərzində Azərbaycan Qarabağ və həmçinin onun ətrafındakı yeddi rayon üzərində effektiv nəzarətini bərpa edib və bu da 100 000-dən çox etnik erməninin kütləvi surətdə köçürülməsi ilə nəticələnib. Regionda davamlı sülhü təmin etmək məqsədilə Çərçivə Konvensiyasında erməni və digər azlıqlara mənsub olan şəxslər üçün nəzərdə tutulan bütün hüquqların təmin edilməsi böyük əhəmiyyət daşıyacaq. Məşvərətçi Komitə ilk dəfə olaraq bu regiondakı vəziyyəti qiymətləndirir və münaqişədən sonrakı reinteqrasiya və barışıq prosesində, həmçinin müxtəlif icmalara aid olan şəxslərin dinc şəkildə yanaşı yaşamasını təmin etmək üçün etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsi istiqamətində onlara dəstək olmaq niyyəti ilə Azərbaycan dövlət qurumlarına tövsiyələr göndərir.

### Səmərəli bərabərlik və ayrı-seçkiliyə yol verməmə

3. Bərabərlik və ayrı-seçkiliyin qadağan edilməsi qanunla təmin edilsə və İnsan Hüquqları üzrə Müvəkkil institutu mövcud olsa da qanuni müddəalar və görülən praktiki tədbirlər tam və səmərəli bərabərliyi təmin etmək üçün kifayət etmir. Mövcud məlumatlar ayrı-seçkiliyin və qeyri-bərabər rəftarın milli azlıqlara mənsub şəxslərə təsir etdiyini göstərir, lakin etnik, dil və ya dini zəmində və mümkün sosial-iqtisadi və ya gender bərabərsizliyi ilə bağlı ayrı-seçkiliyə dair məlumatlar sistematik şəkildə toplanmır və bu istiqamətdə heç bir məqsədyönlü siyasət həyata keçirilmir.

### Azlıqların mədəniyyətlərinin təşviqi

4. Azərbaycan öz milli azlıqlarının, və həmçinin sayca kiçik olanların mədəniyyətlərini təbliğ edir. Dini tolerantlıq və dinlərarası dialoq hökumətin gündəmində başlıca yeri tutur. Təəssüflər olsun ki, mədəniyyətin müasir ifadə tərzlərindən daha çox ənənələrə və folklora diqqət yetirilir və məqsədli maliyyələşdirməyə əsaslanan və milli azlıqların nümayəndələrini cəlb edən şəffaf dəstək sxemi mövcud deyil.

### Düşmənçilikdən qoruma

5. Milli, irqi və ya dini nifrət və düşmənçiliyin qızışdırılmasını cinayət hesab edən qanunlar mövcud olsa da çox az hallar qeydə alınıb. Dövlət qurumları bunu millətlərarası anlaşmanın yaxşı mühiti ilə izah etsə də Məşvərətçi Komitə hesab edir ki, bu, həm də mövcud hüquqi vasitələr haqqında məlumatların olmamasının və ya dövlət qurumlarının bu kimi halları səmərəli şəkildə araşdırma istəyinə və ya bacarığına inamsızlığının göstəricisi kimi şərh edilə bilər.

### Söz azadlığı və birləşmək azadlığı

6. Media haqqında 2021-ci il tarixli Qanun media azadlığına məhdudiyyətləri artırır. 2014-cü ildə qəbul edilmiş "Qeyri-Hökumət Təşkilatları (QHT) haqqında" və 2022-ci ildə qəbul edilmiş "Siyasi partiyalar haqqında" Qanunlar ifadə və birləşmək azadlığına zərər verir. Vətəndaş cəmiyyəti nümayəndələrinin, hüquq müdafiəçilərinin, siyasi fəalların, jurnalistlərin, bloqqerlərin və vəkillərin, və həmçinin milli azlıqların həbsinin davam etməsi ilə bağlı məlumatlar vətəndaş cəmiyyətinə qarşı olan ümumi ab-havadan xəbər verir və milli azlıqlara aid olan şəxslərin hər hansı vətəndaş fəallığına çəkindirici təsir göstərir.

### Dil hüquqları

7. Bəzi milli azlıqların dillərində televiziya və radio yayımı, çox məhdud çap və onlayn media mövcuddur. Lakin proqramlaşdırma kifayət deyil və milli azlıqların özləri tərəfindən idarə edilən media layihələri üçün maliyyə çatışmazlığı mövcuddur. Dövlət idarələri ilə təmasda milli azlıqların dillərindən istifadə qanunla təsbit edilmir, xüsusi və şifahi ünsiyyətlə məhdudlaşır. Topoqrafik işarələrə gəldikdə Məşvərətçi Komitə ənənəvi yerli adların, küçə adlarının və digər topoqrafik göstəricilərin milli azlığa mənsub olan çox sayda

insanın yaşadığı ərazilərdə göstərilməsini təmin edən şəffaf prosedurun tətbiq edilməsinin milli azlıqların uzunmüddətli mövcudluğunun Azərbaycanın multikultural cəmiyyətinin bir hissəsi kimi təqdir edilməsi və alqışlanması kimi təsdiqlənməsinə imkan verəcəyini hesab edir.

8. Əsas dil hüququna, milli azlıqlara mənsub olan şəxslərin şəxsi kimliyinə və ləyaqətinə səmərəli çıxışı təmin etmək məqsədilə Nazirlər Kabineti yanında Terminologiya Komissiyası tərəfindən yeni doğulan körpələrə "lağ, nifrət və alçaldılma"dan qorunmaq üçün qoyulması qadağan edilən adların siyahısına yenidən baxılmalıdır.

## Təhsil

9. Azlıqların stereotipli və mənfi təsvirini aradan qaldırmaq məqsədilə maarifləndirici materialların nəzərdən keçirilməsinə ehtiyac var və ermənilərin Azərbaycanda, xüsusən də Qarabağda və Bakıda tarixi mövcudluğunun maarifləndirici materiallarda əks edilməsinə diqqət yetirilməlidir. Tarixin tədrisində tənqidi düşüncə çoxsaylı perspektivlərin qiymətləndirilməsinə və mədəniyyətlərarası anlaşmanın təşviqinə əsaslanaraq inkişaf etdirilməlidir.

10. Rus, gürcü və müəyyən dərəcədə ivrit və ləzgi dillərinin tədrisi və öyrənilməsi təşviq və təmin olunsa da yalnız ibtidai məktəb səviyyəsində tədris olunan digər milli azlıqların dillərinin əhatə dairəsi və həcmi məhdud olaraq qalmaqdadır. Bu dillərdə müəyyən sayda dərsliklərin hazırlanması, yenilənməsi və nəzərdən keçirilməsi istiqamətində son dövrlərdə aparılan işlər bundan sonra da davam etdirilməlidir. Hazırda ümumi təhsildə tədris edilməyən milli azlıqların dillərinə tədris təklifini genişləndirmək, ixtisaslı müəllim və mütəxəssisləri işə götürmək, universitet səviyyəsində təhsil və tədqiqat təklif etmək üçün xüsusi strategiya qəbul edilməli və həyata keçirilməlidir.

## Milli azlıqlara mənsub olan şəxslərin qərarların qəbul edilməsində və sosial-iqtisadi həyatda iştirakı

11. 2022-ci il tarixli Siyasi Partiyalar haqqında Qanun birləşmək azadlığına eləcə də milli azlıqlara aid olan şəxslərin iştirak dərəcəsinə qoyulan məhdudiyyətləri artırır. Bir neçə maddə xüsusi olaraq milli azlıqları və onlara mənsub olan şəxsləri hədəf alan maddələr kimi şərh edilə bilər və onların hüquqlarını və siyasi iştirakını təşviq edən siyasi partiyaların yaradılmasına mane ola bilər. Dom (qaraçı) azlığına mənsub olan şəxslər sosial təcrid və daha yüksək işsizlik faizləri ilə üzləşməyə davam edirlər və bu da onları həddindən artıq yoxsulluq vəziyyətində saxlayır.

## Qarabağda erməni milli azlığının vəziyyəti

12. Qarabağ münaqişəsi kontekstində Ermənistan Respublikasına qarşı güclü ictimai düşüncə mövcuddur və bu, etnik ermənilərə qarşı münasibətə birbaşa təsir edir. Laçın dəhlizinin təxminən on aya yaxın blokadasından, 2023-cü ilin sentyabrında Azərbaycan hakimiyyətinin hərbi əməliyyatından və dəhlizin qəfil açılmasından sonra 100 000-dən çox erməni regionu tərk edib. Təhlükəsiz qayıdış, əmlakın geri verilməsi və ya kompensasiyanın ödənilməsi imkanlarının təmin edilməsi, erməni mədəni və dini irsinin qorunması, azlıqların hüquqlarının səmərəli şəkildə təmin edilməsi və əsl həqiqət və barışıq prosesinin təşviq edilməsi gələcəkdə dinc yanaşı yaşamanın əsaslarının yaradılması üçün vacib olacaq. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiaqamətində aparılan hazırkı danışıqları Çərçivə Konvensiyasının prinsiplərinə uyğun olaraq etimad quruculuğu tədbirlərini inkişaf etdirmək və regionda davamlı sülhə nail olmaq üçün səy göstərmək imkanı kimi dəyərləndirmək olar.

## TÖVSİYƏLƏR

13. Məşvərətçi Komitə hazırkı yekun qeydlərin və tövsiyələrin Çərçivə Konvensiyasının Azərbaycan tərəfindən tətbiq edilməsi ilə bağlı Nazirlər Komitəsi tərəfindən qəbul ediləcək qətnamə üçün əsas təşkil edə biləcəyini hesab edir.

14. Dövlət qurumları Məşvərət Komitəsinin hazırkı Rəyində əks olunmuş detallı müşahidələri və tövsiyələri nəzərə almağa dəvət edilir. Xüsusilə də onlar Çərçivə Konvensiyasının tətbiqini daha da təkmilləşdirmək üçün aşağıdakı tədbirləri görməlidirlər:

### Dərhal görülən fəaliyyət üçün tövsiyələr

15. Məşvərətçi Komitə dövlət qurumlarını bütün erməni dini və mədəni abidələrini və artefaktlarını inventarlaşdırmağa, mühafizə etməyə və qorumağa və regionda etnik ermənilər tərəfindən istifadə edilən tarixi və mədəniyyət abidələrinin və qəbiristanlıqların vandalizmə məruz qoyulması, dağıdılması və vəziyyətinin dəyişdirilməsi ilə bağlı bütün iddiaları araşdırmağa çağırır. Bütün aidiyyatı orqanlar, o cümlədən ən yüksək siyasi səviyyədə etnik ermənilərin Qarabağın mədəni irsinə verdiyi tarixi töhfələri aydın şəkildə tanımalı və Qarabağdan olan etnik ermənilərin, o cümlədən hazırda xaricdə sığınacaqda olanların mədəni və dini hüquqlarının qorunmasına təminat verməlidir.

16. Məşvərətçi Komitə dövlət qurumlarını erməni icmasına mənsub olan şəxslərə qarşı dözümsüzlüyün və etnik nifrətin yayılmasının istənilən təzahüründən çəkinməyə və bunları qətiyyətlə pisləməyə çağırır. Millətlərarası nifrəti qızışdıran bütün bu cür bəyanatlar və davranışlar tam şəkildə araşdırılmalı və qanuna uyğun olaraq cəzalandırılmalıdır.

17. Məşvərətçi Komitə dövlət qurumlarını milli azlıqlara mənsub olan bütün şəxslərin birləşmək azadlığından səmərəli istifadə edə bilməsi üçün QHT-lərin qeydiyyatı və fəaliyyəti ilə bağlı qanunvericiliyi və təcrübəsini Avropa insan hüquqları standartlarına uyğunlaşdırmağa bir daha çağırır.

18. Məşvərətçi Komitə dövlət qurumlarını ibtidai və orta səviyyələrdə ümumi kurrikulumda azlıqların dillərinin, o cümlədən sayca daha kiçik azlıqların dillərinin təkcə onların ənənəvi olaraq istifadə olunduğu ərazilərdə deyil, həm də milli azlıqlara mənsub olanlar şəxslərin çox sayda yaşadığı yerlərdə tədrisini təklif etmələrinə çağırır.

19. Məşvərətçi Komitə dövlət qurumlarını bütün müvafiq iştirakçı tərəflərlə əməkdaşlıq edərək aydın meyarları müəyyən edərək məcburi Qarabağdan köçkün olan ermənilərin təhlükəsiz, maneəsiz və davamlı şəkildə qayıtması üçün zəruri olan siyasi, hüquqi və praktiki şərait yaratmağa və mülkiyyət məsələləri ilə məşğul olmaq üçün xüsusi mexanizm yaratmağa çağırır. Dövlət qurumları barışma prosesinə zəmin hazırlamaq üçün anti-erməni düşüncəsindən çəkinməli və ona qarşı qətiyyətlə mübarizə aparmalıdır.

### Əlavə tövsiyələr[1]

20. Məşvərətçi Komitə dövlət qurumlarını yeni mədəniyyət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi zamanı müvafiq milli azlıqların nümayəndələri ilə uyğun məsləhətləşmələr aparmağa çağırır. Dövlət qurumları milli azlıqlara mənsub olan şəxslərin fəaliyyəti üçün nəzərdə tutulmuş uzunmüddətli ilkin maliyyələşdirmənin dövlət və yerli səviyyədə şəffaf şəkildə mövcud və əlçatan olmasını təmin etmək məqsədilə azlıqların mədəniyyətlərinə dəstək sxemlərini yenidən nəzərdən keçirməli və azlıqların nümayəndələrinin bu vəsaitin ayrılmasına gətirib çıxaran prosedurda iştirakını təmin etməlidir.

21. Məşvərətçi Komitə dövlət qurumlarını polisin sui-istifadəsi və qanun pozuntusu ilə bağlı bütün halların düzgün və müstəqil şəkildə araşdırılmasını təmin etməyə çağırır. Dövlət qurumları ayrı-seçkilikdən, düşmənçilikdən və zorakılıqdan müdafiə üzrə hüquq-mühafizə orqanları üçün mütəmadi olaraq ilkin və ixtisasartırma təlimlərinin təşkilini təmin etməlidir.

22. Məşvərətçi Komitə dövlət qurumlarını bu yaxınlarda başlanmış sülh prosesini qətiyyətlə davam etdirməyə, anma mərasimlərindən münaqişənin təsirinə məruz qalan bütün şəxslərin əzablarına qarşı anlayış və empatiyanı təşviq etmək fürsəti kimi istifadə etməyə və təhsil və mediada daxil olmaqla ağrılı tarixi hadisələrin yükünün yüngülləşdirilməsi üçün çoxsaylı perspektivləri təşviq etməyə çağırır.

23. Məşvərətçi Komitə dövlət qurumlarını radio və televiziyada azlıqların dillərində yayımı genişləndirməyə və medianın redaksiya müstəqilliyinə xələl gətirmədən milli azlıq təşkilatlarına özlərinin çap, yayım və onlayn medialarını inkişaf etdirmək üçün maliyyə dəstəyi verməyə çağırışını təkrarlayır.

24. Məşvərətçi Komitə hakimiyyət qurumlarını ənənəvi olaraq və ya xeyli sayda milli azlıqlara mənsub şəxin məskunlaşdığı regionlarda inzibati orqanlarla təmaslarda azlıqların dillərinin şifahi və yazılı istifadəsini asanlaşdırmaq üçün bütün zəruri hüquqi və praktiki tədbirlər görməyə çağırır.

[1] Aşağıdakı tövsiyələr Çərçivə Konvensiyasının müvafiq maddələrinin ardıcıllığı ilə verilib.

25. Məşvərətçi Komitə dövlət qurumlarını milli azlıqlara mənsub olan şəxslərin azlıqların dilində öz seçdikləri ad və soyadlardan (ata adlarından) sərbəst istifadə etmək hüququnu təmin etməyə və bu adları rəsmi şəkildə tanınmalarına çağırır.

26. Məşvərətçi Komitə dövlət qurumlarını milli azlığa mənsub olan insanların xeyli sayda ənənəvi olaraq məskunlaşdığı ərazilərdə azlıqların dillərində ənənəvi yerli adların, küçə adlarının və digər topoqrafik göstəricilərin nümayişi hüququ haqqında həssaslığı artırmağa və belə ərazilərin yerli əhalisi ilə bu hüququn həyata keçirilməsini təmin edən şəffaf prosedur müəyyən etmək məqsədilə əməkdaşlığa çağırır.

27. Məşvərətçi Komitə dövlət qurumlarını bütün şagirdlərin və tələbələrin təhsil kurikulumlarında cəmiyyətin multikultural xarakterinə, milli azlıqlara mənsub olan şəxslərin tarixi və mədəni irsinə dair keyfiyyətli məlumatların verilməsini həmçinin tənqidi düşüncə və tarixin tədrisində çoxsaylı perspektivlərin dərk edilməsini təşviq edərək təmin etməyə çağırır.

28. Məşvərətçi Komitə hakimiyyət orqanlarını Dom (qaraçı) azlığına mənsub olan uşaqların bütün səviyyələrdə təhsilə səmərəli və bərabər çıxışının olmasını təmin etmək məqsədilə hərtərəfli strategiya hazırlamağa çağırır. Onlar kənd yerlərində milli azlıqlara mənsub olan qızların dərsdən yayınma və məktəbi erkən tərk etmə nisbətini qiymətləndirmək və bu istiqamətdə məqsədyönlü tədbirlər hazırlamaq və həyata keçirmək üçün gender məsələlərinə həssas olan müstəqil araşdırma aparmalıdırlar.

29. Məşvərətçi Komitə dövlət qurumlarını milli azlıqlara mənsub olan şəxslərin bütün səviyyələrdə qərarların qəbulu prosesində səmərəli iştirakı üçün normativ şərait yaratmağa çağırır.

## Bu tövsiyələrə riayət etmə

30. Məşvərətçi Komitə bu beşinci dövr rəyinin dərcindən sonra dövlət qurumlarını növbəti tədbiri təşkil etməyə təşviq edir. O, bəhs edilən Rəydə verilmiş müşahidə və tövsiyələri nəzərdən keçirmək üçün növbəti dialoqun faydalı olacağını hesab edir. Bundan əlavə, Məşvərətçi Komitə sözü gedən Rəydə əks olunmuş tövsiyələrin həyata keçirilməsinin ən səmərəli yollarının müəyyən edilməsində dövlət orqanlarına dəstək verməyə hazırdır.

## MONİTORİNQ PROSEDURU

### Məşvərətçi Komitənin Dördüncü Rəyinin tövsiyələri ilə bağlı monitorinq fəaliyyətləri

31. Məşvərətçi Komitənin Dördüncü Rəyinin tövsiyələrinə əməl etmək üçün dəyirmi masa keçirilməyib.

### Beşinci dövr üçün dövlət hesabatının hazırlanması

32. Dövlət hesabatı 17 oktyabr 2022-ci il tarixində qəbul edilib.[2] Hesabatın hazırlanmasında milli azlıqlara mənsub olan şəxslərin hüquqlarını təmsil və təşviq edən təşkilatlarla məsləhətləşmələr aparılmayıb.

### Ölkəyə səfər və Beşinci rəyin qəbul edilməsi

33. Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının (bundan sonra "Çərçivə Konvensiyası") Azərbaycan tərəfindən tətbiq edilməsinə dair bu beşinci dövr Rəy Çərçivə Konvensiyasının 26(1) maddəsinə və Nazirlər Komitəsinin (2019)49 saylı Qətnaməsinin 25-cı Qaydasına uyğun olaraq qəbul edilib. Nəticələr beşinci ölkə hesabatında yer almış məlumatlara, digər yazılı mənbələrə və həmçinin Məşvərətçi Komitənin 2023-cü il oktyabrın 23-dən 27-dək Lənkərana, Bakıya, Qubaya və Xınalığa səfəri zamanı dövlət və qeyri-hökumət mənbələrindən əldə edilmiş məlumatlara əsaslanır. Məşvərətçi Komitə səfərdən əvvəl, səfər zamanı və səfərdən sonra əməkdaşlığa görə dövlət qurumlarına və səfər zamanı görüşdüyü digər həmsöhbətlərə verdikləri dəyərli töhfələrinə görə minnətdarlığını ifadə edir. Məşvərətçi Komitənin 8 fevral 2024-cü il tarixində təsdiq etdiyi rəy layihəsi Qərarın 37-ci Qaydasına (2019-cu il)49 uyğun olaraq müşahidələr üçün 15 fevral 2024-cü il tarixində Azərbaycan dövlət qurumlarına göndərilib. Məşvərətçi Komitə 23 aprel 2024-cü il tarixində Azərbaycan dövlət qurumlarından alınmış müşahidələri alqışlayır.

* * *

34. Çərçivə Konvensiyasının bir sıra maddələri hazırkı rəydə əhatə olunmur. Hazırda əlində olan məlumatlara əsaslanaraq Məşvərətçi Komitə bu maddələrin icrasının hər hansı konkret müşahidələrə əsas vermədiyini hesab edir. Bu bəyanat indi uyğun tədbirlərin görüldüyünə və bu istiqamətdə səylərin azaldıla və ya hətta dayandırıla biləcəyinə işarə kimi başa düşülməməlidir. Əksinə, Məşvərətçi Komitə Çərçivə Konvensiyasının öhdəliklərinin dövlət qurumları tərəfindən davamlı səylərin tələb etdiyini hesab edir. Bundan əlavə, bu mərhələdə münasib hesab edilə bilən müəyyən vəziyyət monitorinqin sonrakı dövrlərində mütləq belə olmaya bilər. Nəhayət, bu mərhələdə nisbətən kiçik narahatlıq doğuran məsələlərin zamanla lazımınca qiymətləndirilməmiş olması mümkündür.

[2] Azərbaycan tərəfindən təqdim edilmiş və 17 oktyabr 2022-ci ildə qəbul edilmiş dövlət hesabatının ingiliscə versiyası: https://rm.coe.int/5th-sr-azerbaijan-en/1680a8bfc1 və azərbaycanca versiyası https://rm.coe.int/5th-sr-azerbaijan-az/1680a8c096.

Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitə müəyyən edilmiş prinsiplərin həyata keçirilməsi məqsədilə Çərçivə Konvensiyasının Tərəflərinin gördüyü tədbirlərin adekvatlığını qiymətləndirmək üçün Avropa Şurası Nazirlər Komitəsinə kömək edən müstəqil orqandır.

Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 10 noyabr 1994-cü il tarixində qəbul edilmiş və 1998-ci il fevralın 1-də qüvvəyə minmiş Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası milli azlıqların müdafiəsini təmin etmək məqsədi ilə dövlətlərin riayət etməli olduğu prinsipləri və əldə etməli olduğu məqsədləri müəyyən edir. , Çərçivə Konvensiyasının mətni digər dillərlə yanaşı azərbaycan, rus, talış, ləzgi və gürcü dillərində də mövcuddur.

Bu rəydə Məşvərətçi Komitənin Azərbaycana 5-ci ölkə səfərinin yekunlarına dair qiymətləndirmə öz əksini tapıb.

www.coe.int/minorities

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır.
Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir.
Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır.
Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE